**UOT** 341.01

**Mələkxanım RƏHİMOVA**
*BDU Hüquq fakültəsi İnsan hüquqları və İnformasiya hüququ UNESCO kafedrasının müəllimi*
*melek.rahimovafff@gmail.com*
*https://orcid.org/0009-0009-3879-361X*
DOI: https://doi.org/https://doi.org/10.62130/FFDG4166

# LAYİQLİ MƏNZİL HÜQUQUNUN BEYNƏLXALQ-HÜQUQİ MÜDAFİƏ VASİTƏLƏRİ

**XÜLASƏ**

*Layiqli həyat hüququ sisteminə daxil olan əsas elementlərdən biri də layiqli mənzil hüququdur. Mənzil əmtəə deyil, insan hüququdur. Müvafiq hüquq mülkiyyət hüququndan daha geniş anlayış olub mülkiyyətlə bağlı olmayan təhlükəsizlik, sülh və ləyaqət içində müəyyən bir yerdə yaşamaq kimi anlayışları da özündə birləşdirərək sosial, emosional, psixoloji və iqtisadi həyatımızın episentri rolunu oynayır. Bəzi tədqiqatçılar layiqli mənzil hüququnun konstitusiya-hüquqi mənada müstəqil subyektiv hüquq kimi qəbul etmir və onu tamhüquqlu vətəndaş hüququndan kəskin fərqləndirirlər. Bütünlükdə isə bu hüquq yalnız məhdud mənada sadə sığınacaq hüququnu deyil, adekvat məxfiliyi, adekvat yaşayış sahəsini, adekvat mühafizəni və bütün tələbatların ödənilməsinə çıxış imkanlarını özündə ehtiva edir. Beynəlxalq və milli qanunvericilikdə geniş istinad olunan şəxsin mənzili və şəxsi həyatının toxunulmazlığını ehtiva edən müddəalar da əslində həmin şəxsin birbaşa layiqli həyat hüquqlarının təminatına yönəlmiş faktorlardandır. Məqalədə müəllif tərəfindən layiqli mənzil hüquqlarının məzmunu və universal standartları sistemləşdirilmiş, bu istiqamətdə beynəlxalq, regional və milli normativ aktlar təhlil edilmiş, layiqli mənzil hüququnun pozulması və bu qəbildən olan hallarda istisnalar, həmçinin yumşaq hüquq normaları ətraflı araşdırılmış, müvafiq təklif və tövsiyələr irəli sürülmüşldür.*

***Açar sözlər:*** *layiqli həyat səviyyəsi, adekvat standartlar, sosial hüquqlar, layiqli mənzil hüququ, adekvat yaşayış sahəsi, beynəlxalq-hüquqi əsas, universal standartlar, normativ akt, fəaliyyət planı, rifah vəziyyəti.*

## Giriş

Layiqli yaşayış yeri hüququ – layiqli həyat səviyyəsinin əsas göstəricilərindən biri olaraq layiqli həyat adlanan kompleks hüquq sisteminin müstəqil bir elementini təşkil edir. Layiqli yaşayış yeri hüququ sosial hüquqların həyata keçirilməsi üçün çox əhəmiyyətlidir. Ona bəzən adekvat mənzil hüququ da deyilir. Bəzi mənbələrə görə isə adekvat mənzil hüququ beynəlxalq insan hüquqları hüququnda adekvat yaşayış səviyyəsi hüququnun bir hissəsi kimi tanınan insan hüquqlarındandır [25, s. 10]. Bu hüquq özündə təhlükəsizlik, sülh və ləyaqət içində müəyyən bir yerdə yaşamaq kimi anlayışları birləşdirərək sosial, emosional, iqtisadi həyatımızın episentri rolunu oynayır. Müəlliflərin fikrincə, bu hüquq adekvat layiqli həyat səviyyəsi üçün bütün iqtisadi, sosial və mədəni hüquqların həyata keçirilməsinin mərkəzini kəsb edir və digər hüquqlar – iş, sağlamlıq, sosial təminat, səsvermə, məxfilik, təhsil və s. hüquqların yaranması üçün əsas şərt rolunu oynayır. Beynəlxalq hüquqa əsasən, qovulmaqdan, evin və torpağının əlindən alınmasından narahat olmadan adekvat şəkildə evlə təmin olunmaq təhlükəsiz layiqli mülkə malik olmaq deməkdir [24]. Bəzi hallarda layiqli mənzil hüququ mülkiyyət hüququ ilə qarışdırılır. Lakin layiqli mənzil hüququ mülkiyyət hüququndan daha geniş anlayış olub mülkiyyətlə bağlı olmayan hüquqları da özündə ehtiva edir. Yaşayış yerində sabitliyin hökm sürməsi bu hüquqlar qəbiləsinə aid edilir. Bəzi hallarda isə layiqli mənzil hüququ torpaq hüququna bərabər tutulur. Təbii ki, kənd və icma yerlərində torpağa çıxış layiqli mənzil

hüququnun əsas göstəricisi ola bilər, lakin bu hal şəhər əhalisinə şamil olunmur. Adekvat mənzil hüququndan istifadə müəyyən hallarda torpağa girişi özündə ehtiva etsə də, beynəlxalq insan hüquqları hüququ hazırda torpaq üzərində hüquqları müstəqil layiqli yaşayış hüququ kimi tanımır. Bununla belə, bəzi məsul şəxslər, xüsusən də adekvat yaşayış səviyyəsi hüququnun tərkib hissəsi kimi adekvat mənzillə bağlı Xüsusi Məruzəçi Miloon Kothari torpağın adekvat mənzil hüququnun kritik elementi kimi əhəmiyyətinin tanınmasının tərəfdarı olaraq çıxış edirdi [21, 26, 31]. Rusiya Federasiyası kimi ölkələrin hüquq sistemində isə uzun illər mənzil hüququnun mülki hüququn bir alt sahəsi kimi nəzərdən keçirilməsi tendensiyası mövcud olmuşdur [31]. Bəzi tədqiqatçılar layiqli mənzil hüququnun konstitusiya-hüquqi mənada müstəqil subyektiv hüquq kimi qəbul etmir və onların fikrincə, o tam hüquqlu vətəndaş hüququ kimi qiymətləndirilə bilməz [33]. Bütünlükdə isə bu hüquq yalnız məhdud mənada sadə sığınacaq hüququnu deyil, sabitlik, təhlükəsizlik, sülh şəraitində ləyaqətlə yaşamağı bildirir, adekvat məxfiliyi, adekvat yaşayış sahəsini, adekvat mühafizəni və bütün tələbatların ödənilməsinə çıxışı özündə ehtiva edir [32].

Yaş, iqtisadi göstəricilər, sosial status, ailə vəziyyəti və tərkibi, mentalitet, qrup və digər mənsubiyyət kimi amillərdən asılı olmayaraq, insanlar layiqli və adekvat mənzil hüququna malikdirlər. Sadalanan göstəricilərin heç biri şəxslərin layiqli mənzil hüququnun məhdudlaşdırılması üçün əsas ola bilməz. Adekvat mənzil təminatının ən əsas göstəricisi bu hüququn müvafiq dövlət siyasəti və proqramları, o cümlədən milli mənzil strategiyaları vasitəsilə məhz dövlət qurumları tərəfindən həyata keçirilməsindən ibarətdir. İnsanların mənzil hüquqlarının təminatı və tanınması bütün dövlətlərin beynəlxalq müqavilələrə uyğun olaraq üzərilərinə götürdükləri öhdəliklərdə yer alır. Məhz buna görə də dövlətlər yurisdiksiyaları altında olan şəxslərin layiqli mənzil hüquqlarının realizəsində maraqlı tərəf olaraq çıxış edərək bu istiqamətdə dövlət siyasətləri və fəaliyyət planları həyata keçirirlər.

Mənzil əmtəə deyil, insan hüququdur. Müasir dövrdə mənzilə iqtisadi fenomen, sosial sərvət və investisiya vasitəsi kimi baxılır. Müəlliflər iddia edirlər ki, mənzil hüququnun pozulmasının cəzasız qalması məişət səviyyəsində mənzilə nadir hallarda insan hüququ kimi yanaşılmasından irəli gəlir. Bu hüququ məhdudlaşdıran amillər kimi isə iqlim dəyişikliyi, təbii fəlakətlər, terror, silahlı münaqişələr, fors-major hallar və s. çıxış edir. Təbii ki, əhalinin həssas təbəqəsi olan insanlar – qadınlar, dini və etnik azlıqlar, yerli xalqlar, əlillər, miqrantlar, qaçqınlar və s. daha çox mənzillə bağlı ayrı-seçkiliklə üzləşirlər, insan hüquqlarını və ləyaqətini təcəssüm etdirməyən digər şəraitdə yaşayır və ya evsizlikdən əziyyət çəkirlər [24].

Layiqli mənzil hüququn məzmununda aşağıdakılar ehtiva edilir:

1) Mülkiyyətin hüquqi təminatı. Buraya təhlükəsiz istismar kimi anlayışları istisna edən təqib, özbaşına evdən çıxarılma, yaşayış yerindən uzaqlaşdırma, yaşadığı mənzilə buraxılmama və s. hallar aiddir. Təbii ki, bu müddəada yalnız rəsmi mülkiyyətdən söhbət gedir, qeyri-rəsmi yaşayış məntəqələri isə bu təminatdan məhrumdurlar.

2) Əlverişlilik. Bu müddəaya yaşayış sahəsi üçün ödəniləcək məbləğ, yəni iqtisadi göstəricilər aid edilir. Əsasən, kirayə yaşayan və daimi yaşayış yeri olmayan şəxslərin əlverişlilik sahəsində layiqli mənzil hüquqlarının tez-tez pozulduğunun şahidi oluruq.

3) Mövcudluq. Yaşayış yerinə yaxın məsafədə xidmətlərin, materialların, qurğuların və infrastrukturun mövcud olmasını bildirir. Həmçinin insanların yaşadıqları mənzilin yaxınlığında təhlükəsiz içməli su mənbələri, adekvat kanalizasiya xətləri, tullantıların utilizasiyası, yemək bişirmə, isitmə, işıqlandırma, havalandırma xidmətləri, ərzağın əldə edilməsi üçün müvafiq satış obyetləri və ərzaq anbarı vasitələri, ərazinin drenajına və təcili yardım xidmətlərinə davamlı çıxışı olmalıdır.

4) Yaşayış qabiliyyəti. Sakinləri soyuq, rütubət, isti, yağış, külək, kimyəvi silahlar, şüalanma, radiasiya və s. sağlamlıq üçün təhlükəli olan faktorlardan yayınma kimi kifayət qədər qorunmanın təmin edilməsini bildirir. Həmçinin bu müddəa mənzilin sakinlər üçün kifayət qədər yer təmin etməsini də özündə ehtiva edir.

5) Müvafiqlik. Yaşayış sahəsi insanların onu alması, əldə etməsi və kirayə qaldığı təqdirdə ay-

lıq maddi pul formasında ödəniş üçün iqtisadi cəhətdən həmin şəxslərə uyğun olmalı və insanların digər insan hüquqlarından istifadə etmələrini təhdid yaratmamalıdır.

6) Əlçatanlıq. Yaşlılar, uşaqlar, fiziki və əqli qüsurlu insanlar, yoluxucu xəstəliklərin daşıyıcıları, təbii fəlakət qurbanları və digər həssas qrupların, həmçinin imkansız və təcrid olunmuş qrupların mənzillə təmin olunmasını, eyni zamanda onlar üçün komfortlu məskunlaşma yerlərini nəzərdə tutur.

7) Təhlükəsizlik. Həmin yaşayış yerinin sakinlərinin məcburi köçürmələr, təqiblər və digər təhdidlərdən qanuni müdafiəni özündə əks etdirir.

8) Mənzilin yerləşdiyi yer. Belə ki, mənzilin məşğulluğa, səhiyyə xidmətlərinə, məktəblərə, uşaq bağçalarına və digər sosial obyektlərə çıxış imkanı verəcək şəkildə yerləşməsi daha məqsədəmüvafiqdir. Mənzillər təhlükəli, radiasiyaya məruz qalan və çirklənmiş ərazilərdə, zibilliklər və digər əlverişsiz mənbələrdən uzaqda yerləşməlidirlər.

9) Mədəni adekvatlılıq. Mənzil proqramları və siyasətləri mədəni kimliyin ifadəsinə imkan verən və dünya əhalisinin mədəni müxtəlifliyini tanıyan yaşayış sahəsinin mədəni atributlarını tam nəzərə almasını özündə əks etdirir [26].

Layiqli mənzil hüququ da layiqli həyat hüququ sisteminə daxil olan digər hüquqlar kimi özündə hüquq və azadlıqları birləşdirir. Belə ki, bu hüquqlara aşağıdakılar aiddir.

- Mülkiyyətin təhlükəsizliyi;
- Mənzil, torpaq və əmlakın geri qaytarılması;
- Adekvat mənzilə bərabər və ayrı-seçkilik olmadan çıxış;
- Milli və icma səviyyələrində mənzillə bağlı qərarların qəbul edilməsində iştirak.

Layiqli mənzil hüququna dair azadlıqlara isə aşağıdakılar aiddir:

- Məcburi köçürmələrdən, evin digər şəxslər və qurumlar tərəfindən özbaşına dağıdılmasından və sökülməsindən müdafiə;
- Şəxslərin evinə, şəxsi həyatına və ailəsinə özbaşına müdaxilədən azad olmaq;
- Yaşayış yeri seçmək, harada yaşayacağı və sərbəst hərəkət etməsi barədə qərar [24].

**Layiqli mənzil hüququnun beynəlxalq-hüquqi əsası**

Əksər universal beynəlxalq müqavilələrdə layiqli yaşayış hüququnun tanınmasına rast gələ bilərik. Beynəlxalq və milli qanunvericiliklərdə böyük əhəmiyyətə malik olan şəxsin mənzilinin və onun şəxsi həyatın toxunulmazlığını ehtiva edən müddəalar da əslində həmin şəxsin birbaşa layiqli həyat hüquqlarının təminatına yönəlmiş faktorlardandır.

Bundan başqa, müvafiq hüququn birbaşa əks olunduğu sənədlər arasında 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin hər kəsin özünün və ailəsinin sağlamlığı və rifahı üçün adekvat olan həyat səviyyəsi hüququnu ehtiva edən 25-ci maddəsi [30], Sosial, İqtisadi və Mədəni Hüquqlar haqqında 1966-cı il Beynəlxalq Paktının 11.1-ci maddəsi çıxış edir. Xüsusilə müvafiq Paktın 11.1-ci maddəsində mənzil hüququ adekvat yaşayış səviyyəsi hüququnun vacib ünsür elementi kimi müəyyən olunmuşdur və bu bəzən mənzil təminatı, həmçinin yaşayış şəraitinin daim yaxşılaşdırılması kimi də şərh edilir.

**Bir çox sahəvi sənədlərdə də layiqli mənzil hüququ insan hüququ kimi tanınmışdır.** Xüsusən Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyasının Mənzil başlıqlı 21-ci maddəsində Razılığa gələn dövlətlərin müvafiq məsələni daxili qanun və qaydalarla tənzimləməsi, həmçinin öz ərazisində qanuni qalan qaçqınlara mümkün qədər əlverişli şərait təqdim etmələri müəyyən olunur. Bundan başqa, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında 1965-ci il Beynəlxalq Konvensiyanın 5-ci maddəsinin İqtisadi, sosial və mədəni hüquqları əhatə edən e bəndinin iii yarımbəndində mənzil hüququna sosial hüquqların tərkib hissəsi kimi istinad olunmuşdur [16]. Daha sonra Mülki və Siyasi Hüquqlar haqqında 1966-cı il Beynəlxalq Paktının 17-ci maddəsində heç kimin mənzil həyatına qanunsuz müdaxiləyə yol verilmədiyi, onların şərəf və nüfuzuna qanunsuz qəsdlərə məruz qalmamaları, hər kəsin bu cür müdaxilə və hücumlardan qanunla müdafiə hüququnun olduğu göstərilir [18]. Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında 1979-cu il Konvensiyasının (CEDAW) 14.2-ci maddəsinin h yarımbən-

dində müvafiq olaraq onların mənzil, kanalizasiya, elektrik və su təchizatı, nəqliyyat və rabitə ilə bağlı adekvat yaşayış şəraitindən istifadə etmək və 15.2-ci maddəsində əmlakı idarə etmək üçün onlara bərabər hüquqların verilməsi nəzərdə tutulur [7]. Uşaq Hüquqları haqqında 1989-cu il Konvensiyasının (CRC) 16.1-ci maddəsində heç bir uşağın evinə özbaşına və qeyri-qanuni müdaxilələrə yol verilmədiyi və 27.3-cü maddəsində isə **İştirakçı dövlətlərin milli şəraitə uyğun olaraq imkanları daxilində valideynlərə və uşaqlara mənzillə bağlı maddi yardım və dəstək proqramları təqdim etmələri** müddəaları yer alır [9]. Daha sonra layiqli mənzil hüququ Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında 1990-cı il Beynəlxalq Konvensiyasının 43.1-ci maddəsinin d yarımbəndində həmin şəxslərin sosial mənzil sxemləri də daxil olmaqla mənzil əldə etmək və kirayə haqqı ilə bağlı istismardan müdafiə olunmaq hüquqları şəklində əksini tapmışdır [17]. Layiqli mənzil hüququ Əlilliyi olan şəxslərin hüquqları haqqında 2006-cı il Konvensiyasının (CRPD) Əlçatanlıq adlanan 9-cu maddəsində dolayısıyla, Adekvat həyat səviyyəsi və sosial müdafiə başlıqlı 28-ci maddəsində isə birbaşa öz əksini tapır. Belə ki, 28-ci maddəsinin 1-ci bəndində **əlilliyi olan şəxslərin özləri və ailələri üçün adekvat mənzil alması və yaşayış şəraitinin davamlı olaraq yaxşılaşdırılması hüquqları tanınır. Eyni zamanda İştirakçı dövlətlərin müdafiə və təşviq üçün müvafiq addımlar atması, 2-ci bəndin d yarımbəndində əlillərin dövlət mənzil proqramlarına çıxışının təmin edilməsi bəyan olunur** [8]. Birləşmiş Millətlər Təşkilatının 2007-ci il tarixli Yerli Xalqların Hüquqları Bəyannaməsində layiqli mənzil hüququ ilə birbaşa əlaqəli olan öz müqəddəratını təyinetmə hüququ, torpaq, ehtiyatlar və ərazilərlə bağlı hüquqlar və s. müddəalar yer alır. Eyni zamanda 21.1-ci maddədə yaxşılaşdırılmış mənzil hüquqlarına istinad olunur.

Baş Assambleya 20 dekabr 1982-ci il tarixli 37/221 saylı Qətnamə ilə 1987-ci ili Evsizlər üçün Beynəlxalq Sığınacaq İli elan elan etmişdir. Daha sonra 4 dekabr 1986-cı il tarixli 41/146 saylı qərara uyğun olaraq 7 dekabr 1987-ci ildə Baş Assambleya tərəfindən qəbul edilmiş 42/146 saylı Qətnamədə hər kəsin özü və ailəsi üçün adekvat yaşayış səviyyəsi, o cümlədən adekvat mənzil hüququnun təşviq məqsədilə milli və beynəlxalq səviyyədə dövlətlər və beynəlxalq təşkilatları yaşayış məntəqələrinin yaxşılaşdırılması üçün mənzil strategiyaları və proqramlar hazırlanmaq və bu istiqamətdə fəaliyyətlər həyata keçirməyə çağırırdı [20]. Sonrakı illərdə Sosial və İqtisadi Şura, İnsan Hüquqları Komissiyası və Ayrı-seçkiliyin qarşısının alınması və Azlıqların Müdafiəsi üzrə Alt Komissiya birgə fəaliyyət göstərərək bir sıra sənədlər qəbul etmişdirlər ki, onlar arasında 1991/26 saylı Qətnamədə Alt Komissiya dövlətləri adekvat mənzil hüququnun həyata keçirilməsini təmin etmək üçün effektiv siyasət yürütməyə və müvafiq qanunvericiliyi təkmilləşdirməyə çağırmışdır. Daha sonra 1988-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən Qlobal Mənzil Strategiyası qəbul edilmişdir [32].

Birləşmiş Millətlər Təşkilatının Sosial, İqtisadi, və Mədəni Hüquqlar Komitəsi 1991-ci il tarixli adekvat mənzil hüququna dair 4 saylı və 1997-ci il tarixli məcburi köçürmələrə dair 7 saylı Şərhlərində layiqli mənzil hüququna dar mənada anlayış verilməsinin tərəfdarı olaraq yanaşmış, bu hüququ daha çox təhlükəsizlik, sülh və ləyaqət içində yaşamaq hüququ kimi dəyərləndirmişdir [24]. Bu Ümumi Şərhlərdə layiqli mənzil hüququ istiqamətində məcburi köçürülmə halları, onun hüquqi və qanuni çərçivədə həyata keçirilməsi, məcburi köçürməni istisna edən hallar və s. barədə ətraflı şərh vermişdir [3].

Layiqli mənzil məsələsinə yönəlmiş əsas sənədlər sırasında isə Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Komissiyası tərəfindən qəbul olunmuş 2002/21 və 2003/27 saylı qətnamələrində adekvat mənzil hüququnun layiqli yaşayış səviyyəsi hüququ olduğu qeyd edilmişdir. Daha sonra yaradılmış İnsan Hüquqları Şurasının da həmçinin bu fikirlərə sadiq qaldığının şahidi oluruq.

Layiqli mənzil hüquqlarını öz gündəliyinə daxil etmiş konfrans və tədbirlər də kifayət qədər çoxdur. Xüsusilə Birləşmiş Millətlər Təşkilatı tərəfindən 3-14 iyun 1996-cı ildə İstanbulda keçirilən İnsan Məskənləri (HABITAT II) Konfransının A/CONF.165/14 saylı Hesabatında qeyd olu-

nur ki, bu Konfrans iki əsas mövzunu əhatə edir: 1) şəhərləşən dünyada hamı üçün adekvat sığınacaq və dayanıqlı insan məskənlərinin inkişafı; 2) yaşayış mühitini yaxşılaşdırmaq üçün milli və yerli səviyyələrdə inkişaf. Həmçinin sənəddə layiqli və adekvat mənzilin təminatı istiqamətində müvafiq təklif və tövsiyələr səsləndirilir. Məhz İstanbul Bəyannaməsi və Habitat Gündəliyi mənzil hüquqlarının həyata keçirilməsi üçün çərçivə təşkil edir. Gündəliyə görə, Hökumətlər üçün adekvat mənzil hüququnun tam və mütərəqqi şəkildə həyata keçirilməsini təşviq etmək, qorumaq və təmin etmək istiqamətində öhdəliklər formalaşdırılır [22]. 17 aprel 2000-ci ildə İnsan Hüquqları üzrə Komissiya tərəfindən 2000/9 saylı qətnamə ilə adekvat yaşayış səviyyəsi və adekvat mənzillə bağlı Xüsusi Məruzəçi mandatı yaradıldı və 2008-ci ilin aprel ayına qədər Miloon Kothari ilk dəfə bu vəzifəyə təyin edildi. Onun səlahiyyətlərinə adekvat mənzil hüququnun hüquqi statusu və məzmunu, evsizlik, məcburi köçürmələr, qloballaşma və adekvat mənzil hüququ, ayrı-seçkilik və adekvat mənzil hüququndan istifadə, göstəricilərin inkişafı, adekvat mənzil hüququndan istifadə elementləri kimi su və kanalizasiyaya çıxış, qadınların adekvat mənzil hüququ, adekvat yaşayış səviyyəsi hüququnun tərkib hissəsi kimi adekvat mənzilin tam həyata keçirilməsini təşviq etmək, adekvat mənzil hüququnun tam həyata keçirilməsi üçün çətinlikləri və maneələri müəyyən etmək, adekvat mənzil hüququnun pozulduğunu iddia edən fərdlərin və ya qrupların məlumatlarını nəzərdən keçirmək, adekvat mənzil və torpaq hüququ ilə bağlı genderə xas zəifliklərin müəyyən etmək, yardıma dair koordinasiya və s. aid idi [4].

Birləşmiş Millətlər Təşkilatının 2000-ci il tarixli Minillik Bəyannaməsinin Ümumi ətraf mühitimizi qorumaq başlığı ilə qeyd edilmiş IV Məqsəddə bütün bəşəriyyəti insan fəaliyyəti ilə əvəzsiz şəkildə korlanmış və resursları kifayət etməyəcək bir planetdə yaşamaq təhlükəsindən azad etmək, Zəiflərin qorunması başlıqlı VI Məqsəddə isə təbii fəlakətlər, soyqırımı, silahlı münaqişə və digər fövqəladə hallar nəticəsində əziyyət çəkən uşaqlar və bütün mülki əhaliyə mümkün qədər tez normal həyata qayıtmaları üçün hər cür yardım və müdafiənin göstərilməsini təmin etmək üçün tədbirlər sadalanır [28]. Minilliyin Bəyannaməsi həm də layiqli mənzil hüququnun müxtəlif aspektlərinin şərhi və aydınlaşdırması istiqamətində əvəzsiz mənbədir.

Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyası tərəfindən 2008-ci ilin dekabrında qəbul edilmiş Sosial, İqtisadi və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktın Protokoluna əsasən, mənzilə dair ayrı-seçkilik və məhdudlaşma əvəzinə, adekvat mənzil hüququnun bütün aspektləri ilə bağlı şikayətlərə icazə verilirdi. Fakültativ Protokol 10 dövlət tərəfindən ratifikasiya edilmiş və ondan sonra qüvvəyə minmişdir [19].

Beynəlxalq Əmək Təşkilatının 37-dən çox konvensiya və tövsiyələrində layiqli mənzil hüququ bu və ya digər formada öz əksini tapmışdır. Belə ki, Təşkilatın Məşğulluq üçün Miqrasiya haqqında 97 saylı 1949-cu il Konvensiyasının yenidən işlənmiş versiyasında miqrant işçilərin yerləşdirilmə və mənzil hüquqları öz əksini tapsa da, 1961-ci il 115 saylı İşçilərin Mənzili ilə bağlı Tövsiyəsində işəgötürənlərin işçiləri mənzillə təmin edilməsi öhdəliyi yer almamışdır. Sosial Siyasətin Əsas Məqsədləri və Standartları haqqında 1962-ci il tarixli 117 saylı Konvensiyasının 5-ci maddəsinin 2-ci bəndində minimum yaşayış standartları müəyyən edilərkən işçilərin digər hüquqlarla bərabər mənzil ehtiyaclarının da nəzərə alınması nəzərdə tutulurdu [6]. 1989-cu il Müstəqil ölkələrdə yerli və qəbilə xalqları haqqında 169 saylı Konvensiyasının 14, 16 və 17-ci maddələrində isə müvafiq olaraq **hökumətlər tərəfindən xalqların ənənəvi torpaqlarını müəyyən etmək, orada mülkiyyət və sahiblik hüquqlarının səmərəli müdafiəsinin təminatına yönəlmiş zəruri addımların atması, müvafiq xalqların tutduqları torpaqlardan çıxarıla bilməmələri, köçürülmənin yalnız onların sərbəst və məlumatlı razılığı ilə həyata keçirilməsi, öz ənənəvi torpaqlarına qayıtmaq hüququ, köçürülmə mümkün olmadıqda öz torpaqlarına uyğun bərabər keyfiyyətli və hüquqi statuslu torpaqlarla, pul və ya natura şəklində kompensasiya ilə təmin edilmələri, torpaqlarını özgəninkiləşdirmək və ya öz hüquqlarını öz icmalarından kənara başqa yolla ötürmək imkanları nəzərdən keçirildikdə maraqlı xalqlarla məsləhət-**

**ləşmələr aparılması, onlara məxsus torpağa sahiblik və istifadəni təmin etmək üçün qanunları başa düşməmələrindən istifadə etmələrinin qarşısı almaları və s. müddəalar qeyd olunmuşdur** [15].

İrqi Ayrı-seçkiliyin Aradan Qaldırılması üzrə Komitənin 2004-cü ildə qəbul etdiyi 30 saylı ümumi tövsiyədə iştirakçı dövlətlərin vətəndaşlar və qeyri-vətəndaşlar üçün ayrı-seçkilik olmadan adekvat mənzil hüququndan bərabər istifadəsini təmin etmək, mənzildə seqreqasiyaya yol verməmək və mənzil şəraitinin təmin edilməsini təmin etmək istiqamətində müddəalar yer alırdı [14]. Bundan başqa, Komitə tərəfindən 1997-ci il 23 saylı ümumi tövsiyədə ayrı-seçkilik olmadan yerli xalqların torpaq və əmlak hüquqları tanınırdı [13].

Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNİCEF) tərəfindən 2005-ci il Dünya Uşaqlarının Vəziyyəti hesabatında dünyada 640 milyondan çox uşağın müvafiq mənzildə yaşamadığı faktı yer almışdır. Məhz buna görə, Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları Komitəsi 2002-ci ildə Mənzil Hüquqları Proqramının 1 saylı Hesabatında adekvat mənzil hüququnun universal xarakterini vurğulayaraq, bunun məhdudiyyət olmadan hər bir uşağa şamil olunduğunu vurğulamışdır [2].

Eyni zamanda İnsan Hüquqları üzrə Ali Komissarlıq tərəfindən 2000-ci ildə layiqli və adekvat mənzil hüquqlarını ətraflı əks etdirən OHCHR/BMT-Habitat Fact Sheet – faktlar vərəqəsi hazırlanmış və ictimaiyyətə təqdim edilmişdir.

Beynəlxalq Cinayət Məhkəməsinin 17 iyul 1998-ci ildə İtaliyanın Roma şəhərində qəbul edilmiş və iyul 2002-ci ildə qüvvəyə minmiş Roma Statutunun 8-ci maddəsi hərbi münaqişələr zamanı hərbi zərurətlə əsaslandırılmayan əmlakın qanunsuz və məqsədyönlü məhv edilməsi və mənimsənilməsini müharibə cinayəti kimi tanıyır ki, bu da dolayısıyla mülki əhalinin layiqli mənzil hüquqlarını özündə ehtiva edir [23].

Yumşaq hüquq normalarında da layiqli mənzil hüquqlarına rast gəlirik. Bu qayda və prinsiplər məcburi xarakter daşımasa belə, layiqli mənzil hüquqlarının təşviqi və hüquqi bazasının formalaşdırılması istiqamətində olduqca faydalı mənbələrdir. Belə ki, Birləşmiş Millətlər Təşkilatının 16 dekabr 1991-ci il tarixli 46/91 saylı Yaşlılar üçün Prinsiplərinin 1-ci maddəsində yaşlı insanların adekvat sığınacaq xidmətlərinə çıxış əldə etmələri, 5-ci maddəsində onların təhlükəsiz və şəxsi üstünlüklərə və dəyişən qabiliyyətlərə uyğunlaşa bilən mühitlərdə yaşaya bilmələri, 6-cı maddəsində isə mənzildə mümkün qədər uzun müddət yaşaya bilmələri hüquqları yer alıb [29].

Habelə 2005-ci ilin avqustunda Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqlarının Müdafiəsi və Təşviqi üzrə Alt Komissiyası tərəfindən Qaçqınlar və Köçkünlər üçün Mənzil və Əmlakın Restitusiyasına dair Pinheiro Prinsipləri qəbul edilmişdir ki, bu prinsiplərdə qaçqınların və məcburi köçkünlərin mənzil və əmlakın bərpası hüququnun həyata keçirilməsi, həmçinin layiqli mənzil hüquqları təmin edilməsi halları yer alırdı. Bu prinsiplər yaşayış yerinin bərpası məqsədilə xüsusi siyasət həyata keçirilməsini nəzərdə tutaraq mövcud beynəlxalq insan hüquqlarına, humanitar və milli standartlara əsaslanan restitusiya qanunları, proqramları və siyasətlərini bəyan edirdi [25, s. 26]. Həmçinin bu kateqoriya insanların layiqli mənzil hüquqlarının tanınmasına Daxili Köçkünlük üzrə Rəhbər Prinsiplərində rast gəlirik. Prinsiplər beynəlxalq humanitar hüquqa və insan hüquqlarına dair sənədlərə əsaslanaraq qaçqın və məcburi köçkünlərin rifahın təmin edilməsi və onların layiqli mənzil istiqamətində problemlərinə yönəlmiş müddəalar qəbul etmişdir.

**Regional və milli səviyyələrdə layiqli mənzil hüququnun tanınması**

Regional səviyyədə layiqli mənzil hüququ müxtəlif sənədlərdə öz əksini tapmışdır. Təbii ki, digər sahələrdə olduğu kimi Avroregion müvafiq istiqamətdə də birincilik göstərərək çoxsaylı aktlar qəbul etmişdir. Regionda layiqli mənzil hüquqları bir neçə sənədlə tənzimlənir. 1950-ci il tarixli İnsan Hüquqlarının və Əsas Azadlıqların Təşviqi üzrə Avropa Konvensiyasının 8-ci maddəsində hər kəsin mənzilinin toxunulmazlığına hörmət edilməsi hüququna malik olduğu göstərilir [10]. 1996-cı ildə Yenidən İşlənmiş Avropa Sosial Xartiyasının 31-ci maddəsində hər kəsin

mənzil hüququnun olduğu vurğulanır, mənzil hüququnun səmərəli həyata keçirilməsi məqsədilə dövlətlərdən adekvat standarta uyğun mənzil əldə etmək imkanının yaradılması, evsizliyin tədricən aradan qaldırılması və azaldılması, mənzilin qiymətinin adekvat resursları olmayanlar üçün əlçatanlaşdırılması istiqamətində tədbirlərin görülməsi müəyyənləşdirilir [12]. Bundan başqa, 1977-ci il tarixli Əməkçi Miqrantların Hüquqi Statusuna dair Avropa Konvensiyasının 9-cu maddəsinə görə, Razılığa gələn Tərəflər öz ərazisində müəyyən şərtlər daxilində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmağa icazə verilmiş işçi miqrantlara yaşamaq icazəsi verməyi, 13-cü maddəyə görə, əməkçi miqrantlara mənzil və kirayə haqqı ilə bağlı vətəndaşlara tətbiq olunan rəftardan az əlverişli olmayan şəraitin tətbiqi, onların yaşayış yerlərinin yararlılıq standartlarına riayət olunmasını təmin etmək üçün yoxlamaların aparılması, icarə haqqı ilə bağlı istismardan qoruma, habelə milli hakimiyyət orqanlarında mövcud olan vasitələrlə əməkçi miqrantın mənzilinin münasibliyini təmin etməyi öhdəsinə götürürdü [11].

Amerika regionunda isə 1969-cu il tarixli İnsan Hüquqları üzrə Amerika Konvensiyasının 11-ci maddəsində hər kəsin evinə qanunsuz hücumlardan müdafiə hüququnun olduğu, 21-ci maddəsində hər kəsin öz əmlakından istifadə etmək hüququna sahibliyi qeyd olunur [5].

Layiqli mənzil hüququ Afroregionda İnsan və Xalqların Hüquqları üzrə 1981-ci il və Afrika regionunda Uşaq Hüquqları və Rifahı üzrə 1990-cı il Afrika Xartiyalarında birbaşa deyil, digər hüquqların tərkibində – 14, 16 və 18.1-ci maddələrin məzmununda yer alır. Həmçinin qeyd olunmalıdır ki, Afrika İnsan və Xalqların Hüquqları Komissiyası Sosial və İqtisadi Hüquqlar üzrə Fəaliyyət Mərkəzi və İqtisadi və Sosial Hüquqlar Mərkəzi Nigeriyaya qarşı 155/96 saylı işdə də layiqli mənzil hüququnu birbaşa tanımamışdır.

Layiqli mənzil hüququna dövlətlərin milli qanunvericilik aktlarında da kifayət qədər çox rast gəlirik. Hər şeydən əvvəl, dövlətlər beynəlxalq müqavilələrə uyğun olaraq üzərilərinə götürdükləri öhdəlikləri vicdanla yerinə yetirmək istiqamətində ölkə daxilində fəaliyyətlər həyata keçirirlər. İnsanların layiqli mənzil hüququnun realizəsi bu öhdəliklər arasında əsas yerlərdən birini tutur. Belçika, Seyşel adaları, Cənubi Afrika və Uruqvay kimi bir sıra dövlətlərin milli konstitusiyalarında layiqli mənzil hüququ birbaşa yer alır, digər qrup dövlətlərdə isə insanların layiqli mənzil hüquqlarının təminatı dövlətin vəzifələri arasında sadalanır.

1917-ci il Meksika Konstitusiyasının 4-cü maddəsində hər bir ailənin layiqli mənzildən istifadə etmək hüququna dair müddəaya rast gəlirik. 1976-cı il Portuqaliya Konstitusiyasına 20 sentyabr 1997-ci il tarixli 1/97 saylı düzəlişlə Mənzil və şəhərsalma adlanan 65-ci maddə əlavə edilmişdir. Maddənin müddəalarına görə, hər kəs şəxsən özü və ailəsi üçün qənaətbəxş gigiyena və rahatlıq standartlarına cavab verən, şəxsi və ailə məxfiliyini qoruyan adekvat ölçülü yaşayış hüququna malikdir. 1993-cü il tarixli Rusiya Federasiyası Konstitusiyasının 40-cı maddəsinə görə, hər kəsin ev hüququnun olduğu və heç kəsin özbaşına evdən məhrum edilə bilməməsi hüquqları tanınır. 1995-ci il tarixli Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsində hər kəsin mülkiyyət hüququnun olduğu, 33-cü maddədə hər kəsin mənzil toxunulmazlığı, məhkəmə qərarı olmadan heç kəsin mənzilə daxil olmaması, 43-cü maddədə heç kəsin yaşadığı mənzildən qanunsuz məhrum edilə bilməməsi kimi hüquqlar əks olunub. 1996-cı il tarixli Cənubi Afrika Konstitusiyasının 26-cı maddəsində hər kəsin adekvat mənzil əldə etmək, məhkəmənin qərarı olmadan heç kəsin evindən çıxarıla bilməməsi və evinin sökülə bilməməsi, həmçinin özbaşına köçürülməyə icazə verilməməsi müddəalarına rast gəlirik. İspaniya Konstitusiyasının 47-ci maddəsində bütün ispanların ehtiyaclarına cavab verən layiqli mənzil hüququnun olduğu birbaşa qeyd olunur.

Bundan başqa, bir sıra dövlətlər layiqli mənzil hüquqları istiqamətində müxtəlif proqram və siyasətlər də həyata keçirirlər. 1989-cu ildə Avstraliyada İnsan Hüquqları və Bərabər İmkanlar Komissiyası tərəfindən Evsiz Uşaqlarımız: Evsiz Uşaqlara dair Milli Tədqiqat Hesabatı hazırlanmış və uşaqların evsizliyi, həmçinin onların layiqli mənzillə təminatı istiqamətində fəaliyyətlər həyata keçirilmişdir. Həmçinin Keniyada İnsan Hüquqları üzrə Milli Komissiya tərəfindən sosial

hüquqlar istiqamətində proqram həyata keçirilərək məcburi köçürmələr və qeyri-rəsmi məskunlaşmalar istiqamətində uğurlu siyasət izlənmişdir. İspaniyada Esade Sosial İnnovasiya İnstitutu tərəfindən Esade Layiqli Mənzil Rəsədxanası layihəsi həyata keçirilmişdir.

**Layiqli mənzil hüququnun pozulmasında istisnalıq təşkil edən hallar**

**A.** Məcburi köçürmələr.

Bu hal müxtəlif səbəblərlə – zorakılığa meyilli olan inkişaf və infrastruktur layihələri, şəhərlərin yenidən qurulması və ya şəhərin abadlaşdırılması, mötəbər beynəlxalq tədbirlərə və tikililərə yer açmaq, silahlı münaqişələr, sosial ayrı-seçkilik və s. səbəblərlə həyata keçirilə bilər. Bu hallar şəxsi təhlükəsizlik də daxil olmaqla insan hüquqlarının və layiqli mənzil hüququnun prima facie pozulması faktlarıdır [25, s. 5]. Lakin bəzi hallarda məcburi köçürmələr qanuni xarakter daşıyır. Qeyd olunmalıdır ki, məcburi köçürmə qanuni əsasla yalnız bütün mümkün həll yolları tükəndiyi halda son çarə kimi həyata keçirilməlidir.

Birləşmiş Millətlər Təşkilatının İnsan Məskənləri Proqramı olan BMT-Habitatın bildirdiyinə görə, hər il ən azı 2 milyon insan məcburi şəkildə evlərindən çıxarılır, milyonlarla insan isə məcburi köçürülmənin qurbanı olur [27].

Birləşmiş Millətlər Təşkilatının İnsanın Məskunlaşmasına dair 1976-cı il Konfransında məcburi köçürmə hallarının yalnız mühafizə və bərpa mümkün olmadıqda, həmçinin yerdəyişmə tədbirləri zamanı həyata keçirilməsinə icazə verilir. Həmçinin 1988-ci ildə 43/181 saylı Qərarla Baş Assambleya tərəfindən qəbul edilmiş 2000-ci ilədək Qlobal Sığınacaq Strategiyasında yaşayış yerlərinin yaxşılaşdırılması əsas öhdəlik kimi vurğulanmışdır. Bundan başqa, Sosial, İqtisadi və Mədəni Komitə tərəfindən verilmiş 7 saylı Ümumi şərhə görə, əgər köçürmə halları qanuna və İnsan Hüquqları üzrə Beynəlxalq Paktların müddəalarına uyğun olaraq həyata keçirilərsə, bu zorla həyata keçirilən köçürülmə halı hesab olunmamalıdır [3, para. 4].

***B.** Evdən məcburi çıxarılma*

Beynəlxalq və milli hüquqa əsasən, şəxslərin qanuni mənzilləri və yaşayış yerindən çıxarılması hallarına müvafiq istisnalar əsasında yol verilmir. 1949-cu il Cenevrə Konvensiyalarında və 1977-ci il Protokollarında məcburi köçürmə hallarına mülki əhalinin yerdəyişməsinin və xüsusi mülkiyyətin məhv edilməsinin qadağan edilməsinə dair müddəalar yer almışdır. Lakin şəxslərin mənzillərdə kirayə qaldıqları halda onların məcburi çıxarılması həmin şəxsin icarə haqqını ödəmədiyi və ya ağlabatan səbəb olmadan əmlaka ziyan vurduğu hallarda icra edilə bilər. Bu halda köçürülmə əsaslandırılmalı və onun qanuni, ağlabatan, mütənasib şəkildə və hüquqa uyğun həyata keçirilməsini təmin etməlidir [25, s. 5].

**Nəticə**

Hüquqi qüvvəsindən asılı olmayaraq bütün beynəlxalq müqavilələrdə nəzərdə tutulan layiqli mənzil hüquqları son nəticədə insanların layiqli həyat hüquqlarının realizəsinə və rifah halının yüksəldilməsinə yönəlir. Həmin müqavilələrin monitorinq orqanları, regional və milli məhkəmələr, insan hüquqlarına dair müxtəlif beynəlxalq və dövlətdaxili qurumlar mənzil hüququnun qorunması, həmçinin təşkilati müdafiə mexanizmlərinin həyata keçirilməsində effektiv fəaliyyət göstərirlər. Bütün bunlara uyğun olaraq apardığımız tədqiqat işinin nəticələrini aşağıdakı kimi qruplaşdırmağı məqsədəmüvafiq hesab edirik:

- Müəyyən qrup beynəlxalq və regional müqavilələrdə layiqli mənzil hüququnun müəyyən qruplar kontekstində təmin edilməli olduğu göstərilir və həmin kateqoriya şəxslərə əlavə hüquqi müdafiə verilsə də, son nəticədə layiqli mənzil hüququ bu və ya digər qrupa üstünlük vermədən hər kəsin hüququdur.
- Layiqli mənzil hüququ şəxsin individual ehtiyaclarına adekvat olaraq istiqamətlənərək fərdi xarakter daşıyır. Bu zaman hər bir şəxsin sağlamlıq, yaş, ailə vəziyyəti və tərkibi, vərdişləri və s. hallar nəzərə alınaraq onların layiqli mənzil hüquqları təmin edilməlidir.
- Layiqli mənzil hüququ pozitiv və tədricən həyata keçirilməli olan hüquqlar qrupuna aid edilməlidir. Belə ki, bu hüquq dövlətdən və digər qurumlardan müvafiq siyasət və proqramlar çərçivəsində aktiv fəaliyyət tələb edərək tədricən realizə edilir.
- Layiqli mənzil hüququ yalnız mülkiyyət hüquqlarını məfhumunu deyil, bütünlükdə sosial,

istisadi, mədəni, psixoloji və digər faktorları da özündə birləşdirərək spesifik hüquq əmələ gətirir. Mənzil yalnız maliyyə əmtəəsi deyil. Mənzilin iqtisadi dəyərdən başqa, sosial dəyəri mövcuddur və o maddi kapitaldan daha çox insan, sosial və mədəni kapital mənbəyidir.

- Layiqli mənzil hüququnun adekvat realizəsi hər şeydən əvvəl insanın təhlükəsizliyində özünü büruzə verir. Mənzil adekvat sığınacaq mərkəzidir. Bu, insanların sığına biləcəyi, qayıda biləcəyi, diqqətini cəmləyə biləcəyi, intim əlaqələr qura biləcəyi, özü və başqalarına fokuslanacağı bir yerdir.

Layiqli mənzil hüququnun adekvat realizə üçün bir sıra fəaliyyətlər həyata keçirilməlidir:

- Dövlətlər daxili və xarici siyasətlərində insanların məcburi köçürmə, təqib və digər təhdidlərə qarşı hüquqi müdafiəsinin təminatına yönəlmiş sülh və sabitlik formalaşdırmalıdırlar.
- Dövlətlər münasib qiymətə mənzil əldə edə bilməyən vətəndaşları üçün mənzil subsidiyaları tətbiq etməli, habelə mənzil ehtiyaclarını adekvat şəkildə əks etdirən mənzil maliyyələşdirmə formaları müəyyənləşdirməli və həyata keçirməlidir.
- Dövlət və bələdiyyə mənzil fondlarından sosial ehtiyaclar üçün mənzillərin verilməsini genişləndirməlidir. Belə ki, layiqli mənzil hüququnun həyata keçirilməsi yollarını sərbəst seçmək hüququna malik olan vətəndaşların əksəriyyəti ödəmə qabiliyyəti aşağı olan şəxslərdir ki, onlar da məhz iqtisadi səbəblərdən bazar mexanizmlərindən istifadə etmək, özlərinə adekvat mənzil seçmək və ya yaşayış yerini yaxşılaşdırmaqda çətinlik çəkirlər.
- Əsassız icarə və kirayə şərtləri məhdudlaşdırılmalı, insanların əsassız mənzildən çıxarılma və məcburi köçürülməsi hallarına son qoyulmalıdır.

Əhalinin həssas təbəqəsi və zəif kateqoriyalara aid olan sosial sektorlar üçün əlverişli kredit xətləri və siyasətləri artırılmalı, icma mənzil maliyyələşdirmə sistemləri yaradılmalıdır.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası.1995. URL: https://president.az/az/pages/view/azerbaijan/constitution
2. Birləşmiş Millətlər Təşkilatının Mənzil Hüquqları Proqramı, Hesabat №1: İnsan hüquqları qanunvericiliyi: Beynəlxalq və milli hüquqi sənədlərin icmalı (2002)
3. İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitənin qənaətbəxş mənzil təminatı hüququ haqqında 7 nömrəli Ümumi Şərhi. URL:https://azerbaijan.un.org/sites/default/files/2021-11/CESCR%20General%20Comment%20No%207%20on%20the%20right%20to%20adequate%20housing%20Forced%20evictions_AZ--4final.pdf
4. About the mandate. URL: https://www.ohchr.org/en/special-procedures/sr-housing/about-mandate
5. American Convention on Human Rights. igned at the Inter-American Specialized Conference on Human Rights, San José, Costa Rica, 22 November 1969) URL: https://www.oas.org/en/iachr/mandate/basics/3.american%20convention.pdf
6. C117 Social Policy (Basic Aims and Standards) Convention, 22 July1962 URL: https://normlex.ilo.org/dyn/normlex/en/f?p=NORMLEXPUB:12100:0::NO::P12100_ILO_CODE:C117
7. Convention on the Elimination of All Forms of Discrimination against Women. 34/180. 18 December 1979. by General Assembly. URL: https://www.ohchr.org/sites/default/files/cedaw.pdf
8. Convention on the Rights of Persons with Disabilities. 12 December 2006. BY Sixty-first session of the General Assembly by resolution A/RES/61/106. URL: https://www.un.org/disabilities/documents/convention/convoptprot-e.pdf
9. Convention on the Rights of the Child. 20 November 1989. BY General Assembly resolution 44/25. URL: https://www.ohchr.org/sites/default/files/crc.pdf
10. European Convention on Human Rights. 1950. URL. https://www.echr.coe.int/documents/d/echr/Convention_ENG
11. European Convention on the Legal Status of Migrant Workers. Strasbourg, 24.XI.1977. URL. https://rm.coe.int/CoERMPublicCommonSearchServices/DisplayDCTMContent?documentId=0900001680077323

12.European Social Charter (Revised). Strasbourg, 3.V.1996. URL. https://rm.coe.int/168007cf93

13.General Recommendation No. 23: Indigenous Peoples :. 08/18/1997. Gen. Rec. No. 23. (General Comments). URL: http://www.eods.eu/library/UN_International%20Convention%20on%20the%20Elimination%20of%20Racial%20Discrimination_General%20recommendation%2023_1997_EN.pdf

14.General Recommendation No.30: Discrimination Against Non Citizens :. 01/10/2004. Gen. Rec. No. 30. (General Comments). URL: https://www.globaldetentionproject.org/wp-content/uploads/2016/06/CERD-2004.pdf

15.Indigenous and Tribal Peoples Convention. 27 June 1989. No. 169. By General Conference of the İnternational Labour Organisation at its seventy-sixth session. URL: https://www.ohchr.org/en/instruments-mechanisms/instruments/indigenous-and-tribal-peoples-convention-1989-no-169

16.İnternational Convention on the Elimination of All Forms of Racial Discrimination. by General Assembly. 106 (XX) of 21 December 1965. URL: https://www.ohchr.org/sites/default/files/cerd.pdf

17.International Convention on the Protection of the Rights of All Migrant Workers and Members of Their Families. 18 December 1990. Adopted by General Assembly resolution 45/158. URL: https://www.ohchr.org/sites/default/files/cmw.pdf

18.İnternational Covenant on Civil and Political Rights. 16 December 1966, By General Assembly. URL: https://www.ohchr.org/sites/default/files/ccpr.pdf

19.Optional Protocol to the International Covenant on Economic, Social and Cultural Rights. 10 December 2008. BY sixty-third session of the General Assembly by resolution A/RES/63/117. URL: https://www.ohchr.org/en/instruments-mechanisms/instruments/optional-protocol-international-covenant-economic-social-and

20.Realization of the right to adequate housing. 93rd plenary meeting 7 December 1987. A/RES/42/146.
URL: https://staging.unhabitat.org/downloads/docs/1278_85625_A_RES_42_146.pdf

21.Report of the Special Rapporteur on adequate housing as a component of the right to an adequate standard of living, Miloon Kothari” A/HRC/4/18.

22.Report of The United Nations Conference on Human Settlements (HABITAT II). Istanbul, 3-14 June,1996.A/CONF.165/14.
URL: https://www.un.org/ruleoflaw/wp-content/uploads/2015/10/istanbul-declaration.pdf

23.Rome Statute of the International Criminal Court. By İnternational Criminal Court 2021. URL: https://www.icc-cpi.int/sites/default/files/2024-05/Rome-Statute-eng.pdf

24.The human right to adequate housing.
URL. https://www.ohchr.org/en/special-procedures/sr-housing/human-right-adequate-housing

25.The Right to adequate Housing. Fact Sheet No. 21/Rev.1. By Office of the United Nations High Commissioner for Human Rights
https://www.ohchr.org/sites/default/files/Documents/Publications/FS21_rev_1_Housing_en.pdf

*26.*The Right to an Adequate Standard of Living. URL: https://www.humanrights.is/en/human-rights-education-project/human-rights-concepts-ideas-and-fora/substantive-human-rights/the-right-to-an-adequate-standard-of-living

27.UN-Habitat, Global Report on Human Settlements 2007: Enhancing Urban Safety and Security (Nairobi, 2007)

28.United Nations Millennium Declaration. 08 September 2000. BY General Assembly resolution 55/2. URL: https://www.ohchr.org/en/instruments-mechanisms/instruments/united-nations-millennium-declaration

29.United Nations Principles for Older Persons
Adopted by General Assembly resolution 46/91 of 16 December 1991. URL: https://www.ohchr.org/sites/default/files/olderpersons.pdf

30.Universal Declaration of Human Rights. 1948 Mənbə. URL: https://www.ohchr.org/en/human-rights/universal-declaration/translations/english

31.Иншакова А.О., Кагальницкова Н.В. Жилищное право в доктрине, национальной правовой и законодательной системе. Вестн. Волгогр. гос. ун-та. Сер. 5, Юриспруд. 2016. No 3 (32**)**
https://cyberleninka.ru/article/n/zhilischnoe-pravo-v-doktrine-natsionalnoy-pravovoy-i-zakonodatelnoy-sisteme/viewer

32.Право человека на достойное жилище. URL: https://isfic.info/mpra/intlow82.htm

33.Торгашин И.М., Понятие «Достойная Жизнь» И Право На Жилище. Известия Пензенского Государственного Педагогического Университета Имени В. Г. Белинского Общественные Науки. No 24 2011. URL. https://cyberleninka.ru/article/n/ponyatie-dostoynaya-zhizn-i-pravo-na-zhilische/viewer

**Мелекханым РАГИМОВА**

**МЕЖДУНАРОДНО-ПРАВОВЫЕ СРЕДСТВА ПРАВА НА ДОСТОЙНОЕ ЖИЛИЩЕ**

**РЕЗЮМЕ**

Одним из основных элементов, входящих в систему права на достойную жизнь, является право на достойное жилище. Жилье – это не товар, а право человека. Адекватное право представляет собой более широкое понятие, чем права собственности, и включает в себя неимущественные права, такие как право жить в определенном месте в безопасности, мире и достоинстве, и служит эпицентром нашей социальной, эмоциональной, психологической и экономической жизни. Некоторые исследователи не рассматривают право на достойное жилище как самостоятельное субъективное право в конституционно-правовом смысле и резко отличают его от права полноценного гражданина. В целом это право включает в себя не только право на простое жилье в ограниченном смысле, но также на адекватную неприкосновенность частной жизни, достаточное жилье, адекватную защиту и доступ к удовлетворению всех потребностей. В международном и национальном законодательстве положения, предусматривающие неприкосновенность жилища и частной жизни лица, о деле которого идет речь, фактически являются одним из факторов, непосредственно направленных на обеспечение права на достойную жизнь этого лица. В статье систематизированы содержание и универсальные стандарты права на достойное жилище, проанализированы международные, региональные и национальные нормативные акты в этом направлении, нарушения права на достойное жилище и исключения в таких случаях, а также мягкое право. нормы были детально рассмотрены, выдвинуты соответствующие предложения и рекомендации.

***Ключевые слова:*** достойный уровень жизни, адекватные стандарты, социальные права, право на достойное жилище, достаточное жилое пространство, международно-правовая основа, универсальные стандарты, нормативный акт, план действий, состояние благосостояния.

**Malakhanim RAHIMOVA**

**INTERNATIONAL LEGAL REMEDIES OF THE RIGHT TO DECENT HOUSING**

**SUMMARY**

One of the main elements included in the system of the right to decent life is the right to decent housing. Housing is not a commodity, but a human right. The relevant right is a broader concept than property rights and includes non-property rights such as living in a certain place in security, peace and dignity, and serves as the epicenter of our social, emotional, psychological and economic life. Some researchers do not consider the right to decent housing as an independent subjective right in the constitutional-legal sense and sharply distinguish it from the right of a full-fledged citizen. In general, this right includes not only the right to simple shelter in a limited sense, but also to adequate privacy, adequate living space, adequate protection, and access to the satisfaction of all needs. The provisions that include the inviolability of a person's housing and private life, which are widely referred to in international and national legislation, are in fact one of the factors directly aimed at ensuring the rights of that person to a decent life. In the article, the content and universal standards of decent housing rights were systematized by the author, international, regional and national regulatory acts were analyzed in this direction, violations of the right to decent housing and exceptions in such cases, as well as soft law norms were examined in detail, relevant suggestions and recommendations were put forward.

***Key words:*** decent standard of living, adequate standards, social rights, right to decent housing, adequate living space, international-legal basis, universal standards, normative act, action plan, state of well-being.